# Türk dövlətləri birliyinin ilk simvolu - "Made in Turan"

Dünya yenidən qütbləşir. Baş verən müharibələr, ölkələr arasında olan gərginliklər bununla bağlıdır. Hələlik dünya Qərb, Şərq deyilən iki bloka bölünüb. Ancaq bu birləşmələrin xaricində də yeni güc mərkəzləri formalaşır. Bunlardan biri də türk dünyasıdır.

Hələ ötən yüzilliyin sonlarında "XXI əsr türk əsri olacaq" deyən bir çox siyasətçilər və politoloqlar meydana çıxmışdı. Bəziləri üçün bu, reallıq kimi görünməsə də, inkar da edilmirdi... Prezident İlham Əliyevin dediyi kimi, türk dünyası geniş coğrafiya, təbii sərvətlər, dünyanın ən önəmli nəqliyyat yolu, böyük nüfuz, gənc əhali və qüdrətli hərbi imkanlar olduğu üçün. Çünki bu reallıq türk dünyasına siyasi, iqtisadi və hərbi güc olmaq imkanı verir. Çünki bu coğrafiyada yerləşən ölkələr təbii sərvətləri ilə nəinki özlərini təmin edə bilər, hətta dünyanın müxtəlif coğrafiyasında yaşayan xalqların ehtiyaclarını da qarşılaya bilər. Fransa Prezidenti E.Makronun ölkəsində fəaliyyət göstərən 51 atom-elektrik stansiyası üçün yanacaq kimi uran almağa uzaq Qazaxıstana getməsi buna bariz misaldır.

Məlumdur ki, indiki dünya düzənində gedən müharibə və mübarizənin mərkəzində qlobal ticarət yollarına nəzarət etmək istəyi durur. Qərb bloku dünyadakı enerji resurslarının böyük hissəsinə nəzarəti ələ keçirib, qalır beynəlxalq ticarət dəhlizlərini öz təsiri altına almaq. İndi bu məsələ ətrafında sözün həqiqi mənasında ölüm-dirim mübarizəsi gedir. Rusiya-Ukrayna müharibəsi ilə şimal qonşumuzun Avropaya gedən yolu bağlanıb. O üzdən Rusiya nəyin bahasına olursa olsun "Şimal-Cənub" nəqliyyat dəhlizinin tranzit imkanlarını genişləndirmək istəyir. Məqsədinə çatmaq üçün İran ərazisində Fars körfəzinədək uzanan dəmir yolunun bir hissəsinin tikintisinin xərcini öz üzərinə götürüb, üstəlik, qalan hissəsinin modernləşməsinə yardımçı olmaq istəyir. Təbii ki, bu işdə Azərbaycanın razılığı əsas şərtdir. O üzdən Prezident İlham Əliyevin son Moskva səfərində Prezident Vladimir Putinlə müzakirə etdiyi məsələlərin mərkəzində "Şimal-Cənub" dəhlizinin fəaliyyətinin genişləndirilməsi durmuşdur.

Çinin "Bir kəmər, bir yol" layihəsinin də önəmli ölkəsi Azərbaycan və Orta Asiyadakı türk dövlətləridir. Bu yol Orta dəhliz adlandırılsa da, əslində, qlobal türk ticarət marşrutudur. Son dayanacağı Türkiyə olan bu marşrut onu göstərir ki, dünyanın bizə, daha dəqiq desək, türk dünyasına ehtiyacı getdikcə artacaq.

Son günlər baş verən proseslər onu göstərir ki, Qərbdə Azərbaycanın və türk dünyasının əhəmiyyətini anlamağa başlayıblar. Artıq hətta ABŞ bizimlə yumşaq dillə danışmağa üstünlük verir. Bu hegemon ölkə Ermənistan tərəfindən 4 kəndin qaytarılmasını alqışlayır, daha Qarabağa ermənilərin qeyd-şərtsiz qayıtması barədə amiranə tələblər səsləndirmir, iki ölkə arasında tezliklə sülh müqaviləsinin imzalanmasını istədiyini açıq bəyan edir. Digər maraqlı fakt isə son günlər Fransa tərəfindən neqativ çağırışlara fasilə verilməsidir. Bu onu göstərir ki, fransızlar da anlamağa başlayıblar ki, qətiyyətli Azərbaycanla və güclü türk dünyası ilə ehtiyatlı davranmaq lazımdır.

Türkiyə "İnkişaf yolu" ilə yanaşı, Orta dəhlizdə də önəmli ölkədir, yəni Şərq-Qərb ticarət yolunda Avropaya keçiddir. Zəngəzur dəhlizinin açılması onun tranzit ölkə kimi əhəmiyyətini daha da artıracaq. Çünki Zəngəzur dəhlizindən daşınan yüklər "İnkişaf yolu" ilə qovuşacaq və yükdaşımanın həcmi əlavə milyon tonlarla artacaq. Türkiyənin nəqliyyat naziri Abdulkadir Uraloğlunun dediyi kimi, İraqın cənubundakı Bəsrə bölgəsi Londona qədər uzanan Avropa nəqliyyat qovşağı ilə birləşəcək. Üstəlik, bu yola Zəngəzur dəhlizinin qoşulması həm İraq istiqamətinə, həm də Avropaya yüklərin daşınmasını asanlaşdırmaqla yanaşı, onun həcminin bir neçə dəfə artmasına imkan yaradacaq. Türkiyənin İraqla artıq "İnkişaf yolu" layihəsi türk dünyasının önəmini də artıracaq. Bu layihənin gerçəkləşməsi ilə dünya ticarətinin xeyli hissəsi, daha doğrusu, ildə 600 milyardlıq bir ticarət dövriyyəsinin qardaş ölkə üzərindən aparılması deməkdir.

Türk dünyasının birləşməsinə, vahid siyasi, iqtisadi və hərbi güc mərkəzinə çevrilməsinə əhəmiyyət verən Azərbaycan Prezidenti İlham Əliyevdir. Onun "Bizim yerimiz türk dünyasıdır" deməsi təsadüfi deyil. Bu, Azərbaycanın Türk Dövlətləri Təşkilatı ilə bağlı ciddi layihələri olduğundan xəbər verir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə türk dünyasının markalarını birləşdirən "Made in Turan" brendinin yaradılması bunun ilk müjdəsidir. Bu, Türk Dövlətləri Təşkilatının (TDT) üzv ölkələrinin istehsal etdiyi məhsulların dünya bazarına ixracını xeyli asanlaşdıracaq.

İqtisadçı-ekspertlər bunu türk dünyası markalarının yeni dövrə keçid etməsi ilə yanaşı, qlobal marka olma yolunda əmin addımlarla irəliləməsi kimi qiymətləndirirlər. "Təşəbbüs həddindən artıq maraqlıdır. Məlum olduğu kimi, türk dünyası və türk ölkələri birgə investisiya fondu da yaradıblar. İlkin mərhələdə bu fonddakı vəsaitin 10 milyard dollar təşkil etməsi, sonrakı mərhələdə isə məbləğin 2-3 dəfə artırılmasına dair qərarlar var. Fondun türk dövlətlərinə yatırımları olacaq. Onların istehsal etdikləri məhsulların eyni brend adı altında dünya bazarlarına çıxarılması daha rahat şəkildə müştəri qazanılmasına xidmət edə bilər. Ona görə də bu təşəbbüs kifayət qədər maraqlıdır. Nəticə etibarilə bu təşəbbüs ölkələrarası korporasiyanı da yüksəldə bilər", - deyə onlar bildirirlər.

Yaxın vaxtlarda türk dünyası milli valyutalarla və ya avro kimi regional valyuta ilə ticarət aparılması barədə ortaq qərar qəbul etsə, təəccüblənməməliyik, çünki proseslər bu istiqamətə doğru gedir. Bu, türk dünyasına dollar basqısından qurtulmağa imkan verəcək. İndi dünyada baş verən proseslər onu göstərir ki, hər bir ölkəni və ya birliyi qorumaq üçün birləşmiş hərbi gücə də ehtiyac var. Bunun üçün yaxın vaxtlar türk dünyasının NATO tipində bir hərbi alyansın yaranmasının şahidi ola bilərik.

Hələlik uzun bir yolun başlanğıcındayıq. Qarşıda görüləcək işlər çoxdur. Hər sözünü tutan, qətiyyəti ilə hamıya nümunə olan Prezident İlham Əliyev türk dünyasının təməl daşlarının qoyulması siyasətini uğurla aparır. Dövlətimizin başçısı bundan sonra da qardaş ölkələrin prezidentləri ilə birlikdə türk dünyasının inkişafına böyük töhfələr verəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 28 may, №111.- S.16.